Azərbaycan.- 2021.- 21 aprel. S. 1;8.

# Prezident qayğısının real təzahürü

Ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi uğrunda şəhid olmuş döyüşçü ailələrinin və müharibə əlillərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların yeni mənzillərlə təminatı dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biridir. Həyata keçirilən siyasətin əsas məqsədi budur ki, həmin kateqoriyadan olan vətəndaşlar hər cür qayğı ilə əhatə olunsunlar.

Hazırda da davam edən bu proses həm də nümunəvi xarakter daşıyır. Azərbaycan bu sahədə dünya miqyasında ən qabaqcıl yerlərdədir.

*Ardı 8-ci səh.*



# Prezident qayğısının real təzahürü

## Bu il şəhid ailələrinə və müharibə əlillərinə 3 min mənzil veriləcək

*Əvvəli 1-ci səh.*

Müxtəlif ölkələrdə müharibələrdə həlak olmuş insanların yaxınlarına heç vaxt Azərbaycandakı qədər qayğı, diqqət göstərilməyib. Vətən müharibəsindən ötən 5 ay müddətində bu istiqamətdə görülən proseslərə nəzər yetirsək, həqiqətən də, çox uğurlu layihələrin həyata keçirildiyinə şahidlik etmiş olarıq.

Fevralın 25-də Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimində Prezident İlham Əliyev dövlətin şəhid ailələri, müharibə əlilləri üçün əlindən gələni etdiyini vurğulayaraq bu sahədəki siyasətinin birmənalı olduğunu diqqətə çatdırdı.

Ümumiyyətlə, şəhid ailələri və müharibə əlillərinə qayğı nəticəsində mənzil və fərdi evlə təminat proqramı 2021-ci ildə 2 dəfəyə qədər genişlənib. Bütün bunlar Prezidentin 25 yanvar 2021-ci il tarixli "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamına əsasən həyata keçirilir.

Onu da qeyd edək ki, İlham Əliyevin tapşırığı ilə keçmiş məcburi köçkünlər üçün tikilmiş mənzillər də şəhid ailələrinə və müharibə əlillərinə təqdim edilir. Bu ilin sonunadək həm Birinci, həm İkinci Qarabağ müharibəsində şəhid olanların Bakıda, Sumqayıtda və Abşeron rayonunda yaşayan ailələrinə mənzillərin verilməsi proqramı da hazırlanıb. Dövlət bu proqramı Bakı, Sumqayıt və Abşeron rayonunda bu ilin sonuna qədər tam icra edəcək. Digər şəhər və rayonlarda yaşayan şəhid ailələri üçün binaların, fərdi evlərin tikintisi davam etdirilir.

Prezidentin sərəncamına əsasən 2021-2025-ci illərdə şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 11 min mənzil və fərdi ev verilməsi nəzərdə tutulur. Həmin kateqoriyadan olan həm 2014-2019-cu illərdə uçota alınmış şəxslər, həm də 2020-ci ildə hərbi əməliyyatlarda (o cümlədən Vətən müharibəsində) şəhid olanların ailələri və müharibə əlilləri yaxın beş ildə mənzil və fərdi evlə təmin olunacaq.

Bu il üzrə isə 3 minədək mənzil və fərdi evin verilməsi nəzərdə tutulur. Onlardan artıq 260 mənzil təqdim edilib. Təkcə aprel ayında bu kateqoriyadan olan vətəndaşlara 90 mənzil verilib. Ümumilikdə isə indiyədək şəhid ailələrinə, müharibə əlillərinə 9460 mənzil və fərdi ev təqdim edilib.

Əgər müqayisə etsək görərik ki, hər il şəhid ailələrinə, müharibə əlillərinə verilən mənzillərin sayı artır. Məsələn, 2018-ci ildə 626, 2019-cu ildə bundan 50 faiz çox olmaqla 934, 2020-ci ildə əvvəlki ilə nisbətən 70 faizə qədər çox, yəni 1572 mənzil və fərdi ev şəhid ailələri və müharibə əlillərinə verilib.

Həmçinin müharibə əlillərinin minik avtomobilləri ilə təminatı da davam edir. Ümumilikdə indiyədək müharibə əlillərinə 7200-dən çox avtomobil verilib, ölkə başçısı bu tədbirlərin də davam edəcəyini diqqətə çatdırıb.

Göstərilən rəqəmlər bir daha dövlətin bu kateqoriyadan olan insanlara diqqətinin bariz nümunəsi, Prezident qayğısının real təzahürüdür. Dövlət başçısının şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı imzaladığı sərəncam bir daha təsdiq edir ki, dövlət hər zaman bu kateqoriyadan olan vətəndaşlarının yanındadır və onlarla bağlı bütün məsələlər dövlət başçısının daim diqqət mərkəzindədir.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın şəhid ailələrinə, Qarabağ müharibəsi əlilləri və onların ailə üzvlərinə göstərdiyi diqqət və qayğı hər zaman yüksək dəyərləndirilib. Həm dövlət başçısının, həm də Mehriban Əliyevanın mütəmadi olaraq bu kateqoriyaya aid insanlarla görüşməsi, səmimi söhbət etməsi, İlham Əliyevin "ev almayan şəhid ailəsi qalmayacaq" fikrini bəyan etməsi deyilənləri bir daha təsdiqləyir.

Prezident bu xoşməramlı, humanist missiyası ilə hər kəsə şəhid ailələrinə münasibətin necə olmasının nümunəsini göstərir. Azərbaycan vətəndaşları, xüsusilə də ən həssas təbəqə olan şəhid ailələri, müharibə əlilləri bir daha şahidi olurlar ki, dövlət də, ölkənin lideri də hər zaman onların yanındadır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***